

Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

Xalqın sözü haqq sözüdür

# LERİK



№ 15-16 (6035-6038) 31 avqust 2021-ci il Qəzet 1937-ci ildən çıxır Qiyməti 40 qəpik


## Lerik şəhərində şəhid Elgün və Altay Mövlanov qardaşlarının xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılışı oldu



44 günlük Vətən Müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış, xalqımızın hər zaman fəxrlə andığı şəhid oğulları Elgün və Altay Mövlanov qardaşlarının əziz xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılışı oldu. Açılış mərasimində Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, rayonun hüquq mühafizə orqanlarının, idarə müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

Bulaq kompleksinin önündə davam etdirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi və bulaq kompleksinin önünə əklil və tər gül-çiçəklər düzüldü.

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev ötən il Vətən müharibəsinin 44 günü ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı azad etdiyini, bu möhtəşəm qələbənin şəhidlərimizin qanı, canı bahasına əldə edildiyini, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinin həmişə ehtiramla yad edildiyini bildirdi. Bildirdi ki, həm birinci, həm də ikinci Qarabağ müharibəsində Lerik rayonundan olan qəhrəman oğullarımız hərbi əməliyyatlarda misilsiz rəşadət nümayiş etdirmişlər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilmişdir.





Daha sonra Prezident İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının medallarla təltif edilməsi haqqında imzalaniış 2020-ci il 25 dekabr tarixli, 2362 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu, Lerik şəhərində anadan olan şəhid Altay Tahir oğlu Mövlanov ölümündən sonra "Fizulinin azad olunmasına görə" medalını şəhid atası Tahir Mövlanova təqdim edildi.

Açılış mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon Şöbəsinin rəisi cənab Arif Həsənov, Lerik Rayon Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov, Vətən müharibəsi Qəhrəmanı Amid Heydərovun atası Rəbbil Heydərov, Vətən müharibəsi İştirakçısı Nəbi Əhədov, şəhər 2 saylı məktəbin müəllimi Hacırza Quliyev, şəhid Elgün və Altay qardaşlarının atası Tahir Mövlanov, anası Sevda Mövlanova və əmisi Mahir Mövlanov çıxış edərək şəhidlərin qısa, lakin şərəfli həyat yolundan, Vətən müharibəsində göstərdikləri şücaətlərindən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə göstərdikləri diqqət və qayğıdan danışaraq, onlara öz minnətdarlıqlarını bildirdilər.

Sonda məktəblilərin ifasında şəhidlərə və qələbəmizə həsr olunmuş şeirlər səsləndirildi.




## Prezidentin ən yaxın silahdaşı

***Mehriban xanım Əliyevanın ölkənin birinci xanımı kimi fəaliyyət istiqamətlərinə baxsaq, "Yumşaq güc" amilinin təcrübədə effektivliyinə bir daha əmin ola bilərik. Humanitar sahədə uğurlu fəaliyyət göstərən Mehriban xanım Əliyeva 2017-ci ildən Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilən siyasi rəhbərlik funksiyasını da icra etməyə başladı.***

Azərbaycanın Zəfəri və gələcək böyük uğurları naminə. Prezident İlham Əliyevin ən yaxın silahdaşı olaraq Birinci vitse-prezident Mehriban Əliyevanın sosial, humanitar və iqtisadi siyasətin həyata keçirilməsində böyük əməyi vardır. Müasir Azərbaycanın quruculuğunda bu tandem mühüm əhəmiyyət kəsb edir. Birinci vitse-prezident kimi fəaliyyəti dövründə Mehriban xanım Əliyeva qısa müddətdə özünün peşəkarlığı, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxışı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini açmış, idarəetmədə qadınların rolunun artmasına səbəb olmuşdur. Mehriban xanım ölkəmizdəki qadın hərəkatı tarixində ilk şəxsiyyətdir ki, maarifçilikdən səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir fəaliyyət məkanını əhatə edir. Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual məsələləri də əhatə edir. Bütün bu qeyd edilən məsələlərə əsasən deyə bilərik ki, bu gün Mehriban xanım Əliyevanın Azərbaycanı dünyada mədəniyyət carçısı, sivilizasiyalararası dialoq, mültikulturalizm və tolerantlıq məkanı kimi təqdim etməsi Prezident İlham Əliyevin müzəffər lider portretini uğurla tamamlayır.

## Çayrud kəndində sakinlərlə görüş



25 avqust 2021-ci il tarixdə rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyevin karantin qaydalarının tələblərinə uyğun açıq havada Çayrud kəndinin mərkəzində yerləşən parkda kənd sakinləri ilə görüşü keçirildi. Görüşdə kənd sakinləri tərəfindən qaldırılan problem və təkliflər dinlənildi.

Eyni zamanda C.Baxşıyev Çayrud kəndində yaradılmış icmanın təşəbbüsü, kənd sakinləri və ziyalıların dəstəyi ilə Böyük Vətən müharibəsində həlak olmuş və Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş leriklilərin xatirəsinə ucaldılan abidə kompleksi ilə tanış olmuş, tapşırıq və tövsiyələrini vermişdir.

Kənd sakinləri və ağsaqqallar tikintinin aparılmasında verdiyi dəstəyə, kəndin problemləri ilə bağlı qaldırılan məsələlərə operativ şəkildə göstərdiyi diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlıqlarını bildirdilər.

## Güclənən ordumuz - bizim qürurumuz

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali baş Komandanı İlham Əliyev demişdir: "Güclü ordu, güclü dövlət deməkdir. Bizim məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq, biz daha da möhkəm orduya malik olacağıq. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti, müstəsna xidmətləri nəticəsində yaranan müasir Azərbaycan Silahlı Qüvvələri yüksək standartlar səviyyəsindədir. Azərbaycanın maddi-texniki bazası möhkəmləndirilmiş, kadr ehtiyatı yaradılmış, əsgər və zabit heyətinin elmi, siyasi, peşəkarlıq səviyyəsi, döyüş qabiliyyəti bu gün dünyanın aparıcı ölkələri üçün bir nümunədir. Bunu 44 günlük Vətən müharibəsi bir daha göstərdi.



Ulu Öndər Heydər Əliyev gələcək nəsillər qarşısında bir sıra strateji məsələlər müəyyənləşdirmişdir. Onlardan ən mühümü dövlət qarşısında duran hərbi vətənpərvərlik tərbiyəsidir. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasətinə xüsusi önəm vermiş, bir çox fərman və sərəncamlar imzalayaraq gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsinə, cəmiyyətin aparıcı qüvvə olmasına böyük diqqət yetirərək demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məhfumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Biz inamla deyə bilərik ki, çağırışaqədərki gənclər, gənc əsgərlər qırılmaz tellərlə Vətənə bağlıdır, torpaqlarımızın müdafiəsinə hər an hazır vəziyyətdədir. Qüdrətli, qalib ordumuz intizamlıdır, biliklidir, qorxmazdır, öz bacarığını və peşıkarlığını daim artırır. Əsgərimiz yaxşı bilirdi ki, işğala məruz qalmış 20 faiz torpaqlarımızın azad edilməsi vəzifəsi onların üzərinə düşür, bu torpaqlar nəyin bahasına olursa-olsun azad ediləcək, ölkəmizin suverenliyi, sərhədlərimiz bərpa ediləcəkdir. Düşmənin ardıcıl təxribatlarına cavab olaraq Ali Baş Komandan İlham Əliyevin əmrilə əsgərlərimiz əks-hücuma keçdilər. Həmlə hücumlarında şəhər, qəsəbə və kəndlərimiz, bir sıra strateji yüksəklikləri düşməndən azad edildi, "məğlubedilməz" düşmən ordusu - canlı qüvvəsi, texnikası, onun güvəndiyi möhkəmləndirilmiş istehkam və sədlər darmadağın edildi. Düşmən biabırcasına məğlub edildi. Bu XXI əsrdə dünya dövlətləri sırasında ilk qələbəmiz idi!



Azərbaycan əsgərinin mənəvi-psixoloji sahədə üstünlüyü, mənəvi kamilliyi, milli mentalitet səviyyəsində olması, qüdrətli ordunun əsgəri, Vətənin müdafiəçisi olması bizə deməyə əsas verir ki, əsgərimiz, vətənpərvər ordumuz məğlubedilməzdir. İndi hər bir Azərbaycan əsgəri, gənci üçün Vətəni, əzəli torpaqlarımızı müdafiə etməkdən, qorumaqdan müqəddəs vəzifə yoxdur.

Lerikli gənclər, orduda əsgəri borclarını şərəflə yerinə yetirənlər Vətən müharibəsində əsl igidlik və qəhrəmanlıq göstərmişlər, onlar Vətənin ən yüksək adlarına, orden və medallarına layiq görülmüşlər. Şəhid ailələrinə dövlət qayğısı göstərilir: onların mənzil-məişət şəraiti yaxşılaşdırılır, xatirələri əbədiləşdirilir, anım günləri qeyd olunur. Qarabağın azad edilməsi uğrunda şəhid olanlar barədə kitablarda, jurnallarda, qəzetlərdə, oçerklər yazılır, onların döyüş yolun televiziya verilişləri həsr olunur. Bəli, xalq öz qəhrəmanlarını tanımalıdır.

Eşq olsun vətənpərvər Azərbaycan əsgərinə!

***Pərviz Ağaxanlı***

## Lerik şəhərində təmir-abadlıq işləri davam edir



Lerik şəhərində abadlıq-tikinti işləri çərçivəsində şəhərdaxili avtomobil yollarının əsaslı təmir işlərinə başlanılmışdır. Mirzə Fətəli Axundov, Cəlal Fərziyev, Qədir Nəzərov, Hacı Heydər və Elmar Qarayev küçələrində yolların profilinin hazırlanması və qum-çınqıl qatının döşənməsi işləri aparılmış və hal-hazırda həmin küçələrə asfalt döşənməsinə başlanılmışdır.



Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev şəhərdə aparılan asfaltlanma işləri ilə yerində tanış olmuşdur. Rayon rəhbəri abadlıq-tikinti işlərinin keyfiyyətli və normalara uyğun aparılması üçün aidiyyəti şəxslərə müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər



Preziden tİlham Əliyev azad edilmiş torpaqlarımıza 10 dəfədən çox səfər edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın azad edilmiş ərazilərimizə növbəti səfəri Kəlbəcər və Laçın rayonlarına olub. Səfərlər zamanı Prezident, Ali Baş Komandan yerlərdəki vəziyyətlə, artıq başlanmış quruculuq bərpa işləri ilə birbaşa tanış olur, bölgənin perspektivi ilə bağlı planların real tətbiq imkanlarını öyrənir, yeni tapşırıqlar verir.

Prezident İlham Əliyev Qarabağa yaxın rayonlara səfərləri zamanı da azad olunmuş ərazilərlə Azərbaycanın digər ərazilərini bağlayacaq infrastruktur-nəqliyyat layihələrinin icrasına nəzarət edir, müvafiq göstərişlər verir. Daşkəsənə və Goranboya son səfərləri zamanı Prezident İlham Əliyev Kəlbəcərə yolu asanlaşdıracaq layihələr barədə də məlumat vermişdi.

"CNN Türk" kanalına müsahibəsində açıq mesajlar verən Prezident İlham Əliyevin iki gün sonra Laçın və Kəlbəcərə səfər etməsi Bakının mövqeyinin və atacağı addımların birbaşa yerindən bəyan edilməsidir.

Səfər həm erməni faşizminin və hamilərinin ifşası, həm sərhədlə bağlı yaranmış vəziyyətə dair Azərbaycanın mövqeyinin ifadəolunması, həm də Zəngəzur dəhlizi, məskunlaşdırma və quruculuq işləri ilə bağlı aydın mesajlarla yadda qaldı.



Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, bu istiqamətdə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib.

Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi.

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Prezident İlham Əliyev səfər zamanı İstisu sanatoriyasının mövcud durumu ilə də tanış olub. İndi "İstisu"ya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu. Bütün Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır.

Azad edilmiş torpaqların investisiya proqramı tutulanda Prezident İlham Əliyevin göstərişi ilə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilir.

Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir:

a) Aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq.

b) Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək.

c) Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur.

# "SNN Türk" televiziya kanalına müsahibədə mühüm mesajlar

Azərbaycan Prezidenti İlham Əliyev "SN Türk" televiziya kanalına müsahibəsini diqqətlə dinlədik, ölkə rəhbəri müsahibəsində bir çox məsələlərlə bağlı mühüm mesajlar verdi. Bunların bir qismi yaranmış yeni vəziyyətdə Ermənistan Azərbaycan münasibətləri və onun perspektivləri ilə bağlı idi. Qalib lider İlham Əliyev dedi ki, əgər Ermənistan sülhə hazır olmayacaqsa, Azərbaycanın sülh təklifi masa üstündə əbədi qala bilməz. Bu mövqe Ermənistanı son günlər törətdiyi təxribatlardan çəkinməyə dəvət etməklə bərabər, həm də ona təmkinli, ancaq ciddi xəbərdarlıq idi.

Müsahibədə qeyd edilən ikinci mühüm məsələ Azərbaycan Prezidentinin Qarabağda yaşayan erməni icmasını "yolunu azmış Azərbaycan vətəndaşları" adlandırması və onların Azərbaycan cəmiyyətinə inteqrasiya edilməsi oldu. Yəni, yolunu azmış olsa belə, Azərbaycan vətəndaşlarını Azərbaycandan qoruyacaq heç bir sülhməramlığa heç bir ehtiyacı yoxdur.

Diqqət çəkən üçüncü məqam o idi ki, artıq erməni xalqı və hakimiyyəti məğlubiyyəti qəbul edib və sülhə məhkum olduğunu anlayır. Ancaq təəssüf ki, yenə də kimlərsə erməniləri özlərinin imperialist məqsədləri naminə yeni avantüraya sürükləmək istəyir. Yəni, Rusiyanın müdafiə naziri nədənsə yenidən Ermənistan ordusunu silahlandırmaq və komplektləşdirmək barədə fikirlər səsləndirir. Ermənistan zorla Azərbaycana qarşı silahlandırmağa sövq edilir. Bu, yolverilməzdir.



10 noyabr Bəyanatında göstərilib ki, sülhməramlı missiyanın səlahiyyət zonasına daxil olan bütünm silahlı qruplaşmalar dərhal Azərbaycan ərazisindən çıxarılmalıdır. Bu mesaj daha konkret idi. Əgər işğalçılar 44 günlük müharibədən ibrət götürməyiblərsə, Azərbaycan buna yenidən hazırdır.

Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, biz fəlaqətli müharibə apardıq və hərbi cinayətlərə yol vermədik.

Azərbaycan sülh istəyir. Sülhə gedən yol isə Zəngəzurm dəhlizindən, Ermənistan tərəfindən tanınan Azərbaycan sərhədlərindən, Azərbaycan dövlətinin və qanunlarının himayəsində yaşayan erməni icmasından keçir.

***Hüseynbala Əliyev, araşdırmaçı-tarixçi***

# Allahın möcüzəsi - bal arısı

Bəşəriyyətin sonuncu səmavi kitabı olan Qurani-Kərimin 16-cı surəsi Allah-Təala tərəfindən "ən-Nəhl (Bal arısı)" adlandırılmışdır. Surə 128 ayədən ibarət olsa da, bu ayələrdən yalnız ikisi sırf bal arısına aid edilmişdir Həmin ayələrin Azərbaycan dilinə tərcümə edilmiş variantlarda Surəyə aidiyyəti ayələr arasında məntiqi asılılıq və bağlılıq vardır. Bal arıları bütün fəaliyyətini Allah-Təalanın iradəsi ilə həyata keçirir, onlara edilən vəyhə tabe olur və əməl edirlər.

Qaynaqlara görə, dünyada 20 mindən artıq arı növü var. Antarktidadan başqa dünyanın istənilən yerində onlara rast gəlmək mümkündür. Bir çox ölkələrdə kənd sakinlərinin müəyyən hissəsi özünün məşğulluq problemini arıçılıqda həll edir, yaxşı qazanc əldə edir.

Hələ 1889-cu ildə Muğanda Qafqaz ipəkçilik stansiyası məzdində təşkil edilmiş arıxana bütün Cənubi Qafqaz üçün rasional arıçılıq mərkəzinə çevrilmişdi. Burada arıçılığın sirlərini öryənən, arı xəstəlikləri ilə maraqlanan, kəndlərdə yeni tip pətəklər yayan, arıçılığa dair kitabları Azərbaycan dilinə tərcümə edən alimlər və arıçılar işləyirdilər.

1919-cu ildə dövlət tərəfindən "Arıçılığın mühafizəsi haqqında" dekret qəbul edilmiş, bu sənədə görə kəndlilər əvvəllər tutulan "arı pulu" vergisindən azad edilmişlər. Mövcud olan xırda dağınıq arıçılıq təsərrüfatları kolxoz və sovxozlara daxil edilmiş, sonralar ixtisaslaşdırılmış iri arıçılıq təsərrüfatları yaradılmışdır. Respublikamızda 10 ixtisaslaşdırılmış arıçılıq sovxozu, Lənkəranda ittifaq əhəmiyyətli arı yetişdirmə sovxozu fəaliyyət göstərirdi. Qafqaz ana arıları təkcə Rusiyaya deyil, dünyanın bir çox ölkələrinə aparılırdı.

Arıçılığın, arı məhsullarının təbabətdə, insan xəstəliklərinin müalicəsində böyük əhəmiyyətə malikdir. Cərrahi əməliyyatlardan çıxan xəstələrə, ürək-damar, sinir, mədə, bronxial astma, ağciyər xəstəlikləri zamanı bal əvəzsizdir. Bal insanın bədən müqavimətini artırır, gözə işıq verir. Arıçılığa dövlətin diqqət və qayğısı, bu sahəyə subsidiyalar ayırması arıçılığı xeyli inkişaf etdirmişdir. Prezident İlham Əliyev "Arıçılıq haqqında" Qanun imzalamışdır.



Lerik rayonunda arıçılığı daha da inkişaf etdirmək üçün əlverişli imkanlar var. Bundan ötrü təkliflərimiz var:

1. Rayonda arıçılığın inkişafı üçün birinci növbədə kadrlar hazırlamaq lazımdır. Kadrlar gənclərdən təşkil olunmalıdır. Rayon peşə məktəbində arıçılıq kursları təşkil olunmalıdır.

2. Rayon ərazisində olan arıların çoxu sarı, İran cinsidir, onlar Qabaqtəpə cins arıları ilə əvəz olunmalı, daha doğrusu, rayona boz qara Qafqaz Qabaqtəbə arıları cinsləri gətirilməlidir.

3. Rayon mərkəzində damazlıq arı yetişdirilən məntəqə təşkil etməklə, arı ailələri yetişdirilib satılmalıdır.

4. Arıçılığın inkişafı üçün rayon mərkəzində arıçılıq satış bazası yaratmaq lazımdır. Bu bazada arı yeşiklərindən tutmuş, bal süzən maşına qədər - arıçılığa aid bütün ləvazimatların satışı təşkil olunmalıdır. Bazada arılar üçün satılan bütün dərman preparatlarının alınması təşkil olunmalıdır.

5. Arıçılığın inkişafı üçün onun yem bazası olmalıdır. Arı bəslənən kənd ərazisində xaşa bitki sahələri əkilməli, onların çiçəyi yüksək keyfiyyətli baldır. Ərazilərdə akasiya ağaclarının sayı artırılmalıdır.

6. Arıçılığın inkişafı üçün köçəri arıçılıqdan istifadə edilməlidir. Bunun üçün aranda arıların balı süzülüb yaylaqlara qaldırılmalıdır.



7. Arıçılığın inkişaf etdirilməsi üçün arı xəstəliklərini bilməli, onların müalicə etdirilməsi üçün mütəxəssislərdən düzgün istifadə edilməlidir.

***Məzahir Ağayev***

# Ömrün sahillərində



Hərdən ömrün sahillərində dayanıb yaşanmış illərin fərəhli günlərini yad etmək necə də xoşdur... Fikirləşirik ki, ömrün dəyəri uzun sürən vaxtla ölçülmür: mənalı, insanlara lazımlı, yaddaqalan ömürdür, əsil ömür! Belə ömrü yaşamağa dəyər.

Məhz Sahil Gülhəsənovun yaşadığı ömrü də mənalı, elə-obaya lazımlı ömür saymaq olar. Bu barədə bir qədər sonra. Sahilin atası İbrahim Həbibov 1941-45-ci illər İkinci Dünya müharibəsinin iştirakçısı olmuşdur. Döyüş yolu od-alovdan keçmiş, müharibənin dəhşətlərini gözləri ilə görmüş, dava törədənlərə nifrət etmişdir. İbrahim kişi I qrup müharibə əlili kimi doğma kəndi Anbuya qayıtmış, uzun müddət ticarət sistemində çalışmışdır. Sahilin böyük oğlu İsgəndər ikinci qrup Qarabağ müharibəsi əlilidir. O, 1994-cü ildə Ağdamın Çəmənli, Güllücə kəndlərinin ərazisində, digər bölgələrdə erməni təcavüzkarlarına qarşı döyüşlərdə cəsur bir əsgər kimi tanınmışdır. Digər oğlu Babək Tərtər ərazisində gülldən ağır yaralanmışdır, II qrup mühalribə əlilidir. Sahil Gülhəsənovun nəvələri Əbutalıb və İsgəndər oğlu Milli Ordu sıralarında xidmət, digər nəvələri Emruz və Cəmaləddin institut tələbələridir. Sahil bir vətəndaş olaraq öhdəsinə düşən borcunu layiqincə yerinə yetirir, övladlarının, nəvələrinin vətənpərvərliyindən, el-obada xeyirxahlığından məmnunluq duyur.

Sahil İbrahim oğlunun yaşadığı ömür mənalı bir həyat həqiqətidir. Onun həyatı enişli-yoxşuludur, çətinliklərlə az rastlaşmayıb, fərəhli günlər keçirib. Sahil 70-ci illərdə universitetə daxil olmaq istəyib, lakin son nəticə uğursuz olub. Ailəli olduğu üçün ali təhsil ala bilməmiş, daxil olduğu texnikumlarda təhsilini davam etdirmədən sənədlərini geri götürmüşdür. Universitetin hüquq fakültəsinə daxil olmaq istəsə də bu istəyi də alınmamışdır. Həyatda hər şey ali təhsil almaqdan asılı deyil. Bizim o qədər diplomsuz dünya miqyasında tanınmış dahilərimiz, müdriklərimiz, şəxsiyyətlərimiz var...



Sahil Gülhəsənov təhsilini Lənkəran Tibb Texnikumunda almış, ömrünün mənalı günlərini insanların sağlam həyat sürməsinə, cansağlığının qorunmasına, qoruyucu təbabətə həsr etmişdir. İndi, budur, o, 25 ildən çoxdur ki, Lerik Rayon Mərkəzi Xəstəxanasında tibb işçisi kimi fəaliyyət göstərir. Yeni idarəetmə metodu ilə işləyən xəstəxananın, bütün tibb personalının qayğıları daha da artmışdır. Bu mənada Sahil Gülhəsənovun da məsuliyyəti də artmışdır. Pandemiya şəraitində rayonun bütün səhiyyə işçiləri kimi o da var qüvvə ilə çalışır.

Bəli, Sahil İbrahim oğlu dəyərli bir ömrün sahillərindədir. Bu yolda ona xoş arzu və istəklərimizi bildiririk.

***Nizami Suvarov***

# Heyvandarlıqda süni mayalanmanın qolu

***Son illərdə dövlətimizin heyvandarlıq sahəsində göstərdiyi qayğı nəticəsində kənd təsərrüfatı rayonlarının kəndli-fermer və s. təsərrüfatlarda inəklərin süni mayalanması sahəsində xeyli işlər görülmüşdür. Hazırda özəl təsərrüfatlarda inəklər süni yolla cins törədici buğaların toxumu ilə mayalandırılır. Alınmış hər bir baş buzov üçün dövlət fermerə 100 manat məbləğində supsidiya verir və bu da fermerlərin daha yaxşı işlləmələrinə maraq oyadır.***

Hazırkı dövrdə hevandarlığın sürətlə inkişaf etdirilməsində, heyvanlar arasında yolxucu xəstəliklərin yayılmasının qarşısının alınmasında və ana heyvanlar arasında qısırlığın ləğv olunmasında süni mayalanma işinin çox böyük təsrübəvi əhəmiyyəti vardır.

Süni mayalanmanın heyvandarlıqda müvəffəqiyyətlə həyata keçirilməsi bir tərəfdən iqtisadi cəhətdən, digər tərəfdən isə heyvanlar arasında təbii cütləşmə zamanı yayılan yoluxucu xəstəliklərin qarşısı alınır. Bundan əlavə yüksək məhsuldar cins buğaların (törədicilərin) toxumundan istifadə etməklə yüksək məhsuldar balalar alınır.

Qabaqcıl fermer təsərrüfatlarının iş təcrübəsi və aparılmış elmi-tədqiqat işlərinin nəticələri göstərir ki, süni mayalanma düzgün aparılsa hər 100 baş inəkdən 98-100 baş buzov almaq mümkündür. Odur ki, heyvandarlıqla əlverişli üsul olan süni mayalanma tədbirlərini geniş miqyasda həyata keçirmək çox önəmlidir və günün vacib məsələsidir.

Süni mayalanma nə qədər mütərəqqi bir üsul olsa da, onun nəticələri bu tədbiri apararkən baytarlıq-sanitariya və gigiyena qaydalarına düzgün əməl olunmasından çox asılıdır.

Məlum olduğu kimi spermatozoidlərə xarici amillər, bir sıra kimyəvi maddələr və xüsusən dezinfeksiyaedici preparatlar mənəfi təsir edirlər. Buna görə də süni mayalanma prosesindı istifadə olunan cihazlar, alətlər, digər avadanlıqlar ideal və steril olmalıdır. Dezinfeksiyaedici maddələr və istifadə olunan antibiotiklər elə seçilməlidirlər ki, onlar spermaya öldürücü və ya mənfi təsir etməsin.



Nəzərə almaq lazımdır ki, spermanın mikroorqanizmlərlə çirklənmə dərəcəsi, onların keyfiyyətinin yoxlanılması və sanitariya qaydalarının qorunması daim ciddi nəzarət altında olmalıdır. Zoobaytar mütəxəssisləri bir qayda olaraq, süni mayalanma məntəqələrinin otaqlaırını düzgün təşkil etməlidirlər. Digər heyvandarlıq obyeəktlərindən fərqli olaraq, burada dezinfeksiyaedici maddələr xüsusilə dəqiq seçilib işlədilməlidir.

Əgər istifadə olunan spermanın kolittiri, yəni bakteriyalara görə çirklənmə dərəcəsi 1:10 nisbətindən çoxdursa, onu süni mayalanmaq üçün istifadə etmək olmaz. Spermanın 1 ml-də 5 mindən artıq qeyri-patogenk mikrob cinsi olarsa onda həmin spermadan istifadə etmək qadağan olunur.

Xarici ölkələrdən Respublikamıza gətirilmiş spermanın - toxumun hökmən "Baytarlıq sertifikatı" olmalıdır. Qranula şəklində olan spermanı durultmaq üçün istifadə olunan qida mühiti steril olmalı, onlar işlədilməzdən əvvəl zərərsizliyinə və sterilliyinə görə bir daha yoxlanılmalıdır.

Onu da qeyd etmək istəyirəm ki, Lerik rayonunda süni mayalanmaya diqqət artmaqdadır. Bu, dövlətimizin heyvandarlığa göstərdiyi diqqətin, bu sahəyə önəm verməsinin nəticəsidir.

Çox təəssüf ki, rayonumuzda müasir mayalanma məntəqələri və ixtisaslı mütəxəssislər azdır. Bəzi ərazilərdə, kəndlərdə bu mütərəqqi metoddan az istifadə olunur. Bu heyvandarlığın effektli olmasına mənfi təsir göstərir.



***Mirzaid Qurbanov, Lerik DAİM-in sektor müdiri***

# Azərbaycan kinosunun Şahmarı

## *Unudulmaz kino aktyoru Şahmar Ələkbərovun vəfatından iyirmi səkkiz il ötür*

### Şahmarla unudulmaz görüş

1991-ci ilin payızı idi. Mən Bakı Sosial İdarəetmə və Palitologiya İnstitutunu (indiki İdarəçilik Akademiyası) bitirdikdən sonra tanınmış jurnalist Loğman Rəşidzadənin redaktorluğu ilə nəşr olunan "Kənd həyatı" jurnalında xüsusi müxbir vəzifəsində işə düzəlmişdim, redaktorun mənə diqqət və qayğısını həmişə hiss edirdim. Jurnalda yazılarım sovet dönəmində də çap olunmuşdu.

Sovet hökumətinin süqutu səbəbindən mətbuat orqanları aylıq kütləvi ictimai-siyasi jurnalı olan "Kənd həyatı"nın da fatihəsi verildi.

Mən o vaxtdan paytaxtda baş tutan bəzi kütləvi tədbirlərin iştirakçısı oldum, qəzetlərlə əməkdaşlıq edirdim, məşhur şəxsiyyətlərlə tanış olurdum. Maraq dairəmə daxil olan mövzularda yazılar yazır, onları çap etdirirdim.

Günlərin birində məni Murad Muradov adlı bir nəfərlə tanış etdilər. O, Leninqrad (indiki Sankt-Peterburq) Kinematoqrafiya İnstitutunun kino mühəndisliyi şöbəsini bitirmişdi. Kino mühəndisi ifadəsi mənə qəribə gəlirdi. Muradla birlikdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına getdik. Muradın iş yeri ilə tanış olduq. O, hər şeyi mənə başa saldı. Sonra biz görkəmli kinoaktyor, bir neçə filmdə unudulmaz obrazlar yaradan, boyuna-buxununa, görkəminə, danışıq tempinə, kinoaktyorluğu sənətinə və kaloritinə görə boyuna biçilən Qəzənfər, Cavidan, Fərrux, Məzahir, İman, Gündüz Kərimli, Qatır Məmməd obrazlarını xatırladım. Şahmar bu rolları elə təbii, ustalıqla oynayır ki, düşünürəm: rejissorlar nə yaxşı ki, bu rollara çəkilməyə Şahmarı dəvət ediblər. Məhz onun ifasında onun oynadığı rolların ekran təcəssümü öz uğurlu bədii həllini tapıb...

Nə isə. Biz Şahmar Ələkbərovla görüşdük, Murad məni aktyorla tanış etdi. Dəqiq yadımdadır. Muradın çalışdığı studiyada bir yer tapdıq. Stol yox idi, biz kino lentləri üçün hazırlanmış dəmir qutuların üzərində oturduq. Hər şeydən - kinodan tutmuş 20 Yanvar hadisələrinədək, Qarabağda gərginləşmiş vəziyyət, hakimiyyət böhranı,



kinoya, aktyorlara diqqətsizlik və s. barədə danışırdıq. Şahmar müəllim siqaret çəkir, tüstü burumları ətrafa yayılırdı. Onun sol çənəsinə yan tərəfdən ağ tibbi lent bağlanmışdı. O vaxt cürət edib bunun niyə belə olduğunu soruşmadım. Kaş ki, o vaxtlar foto aparat olaydı, kinomuzun ulduzu ilə birlikdə heç olmasa bir yadigar şəkil çəkdirəydik. Nə biləydik ki, 1992-ci ildə ömrü tamam olacaq, bir daha onun mehriban çöhrəsini görməyəcək, kinoaktyorluğu sənəti üçün yaranmış Şahmarı görə bilmərik...

### Ekrandakı sərhədçi

Zaman belə parlaq obraz-



lar yaradanları nadir hallarda bəxş edir... Şahmar Ələkbərov 23 avqust 1943-cü ildə Gəncədə anadan olub. Atası Zülfüqar əslən Cəbrayıl rayonundan, anası İzulət xanım isə gürcü kökənli gəncəlidir. Valideynləri Gəncədə yaşadıqlarına görə çoxları Şahmarı gəncəli kimi tanıyır. Onun doqquz yaşı olanda ailəsi Bakıya köçür. Anası İzulət xanım oğlu Şahmarı səhnədə görmək istəmirdi. Lakin Şahmar Teatr İnstitutunu seçir. Rza Təhmasibdən dərs alarkən 3-cü kursda Akademik Milli Dram Teatrına dəvət olunur. Sonra bir neçə uğurlu roldan sonra daha bir ustad sənətkar Adil İsgəndərovun diqqətini çəkir, onu təsisçisi olduğu kinoaktyorluğu studiyasına dəvət edir. Məhz bu dəvət Şahmarın həyatı və karyerasında dönüş nöqtəsi olur.

Ali təhsilini başa vurduqdan sonra institutda müəllim-assistent kimi saxlanılır, eyni zamanda aktyor və rejissor istedadı üzə çıxır. O, institutda tələbəsi Kamilla xanıma aşiq olur. Kamilla Xanım aktyorla ailə həyatı qurmaq istəmədiyini açıq büruzə verir. Şahmaq dörd il bu xanımın ardınca "sürünür". Kamilla xanımın nənəsinin müdaxiləsindən sonra onlar ailə həyatı qururlar.

Şahmar Ələkbərovun 1967-ci ildə ekrana çıxmış "Dağlarda döyüş" filmi ilə məşhurlaşmağa başlayır. Şahmarın kinoda ilk işi Kamil Rüstəmbəyovun yazıçı-jurnalist Əhmədağa Qurbanovun "Tikanlı məftillər" povestinin mötivləri əsasında ekranlaşdırdığı "Dağlarda döyüş" filmindəki 24 yaşlı Fərrux obrazı olmuşdu. Filmdə dövlət sərhədinin qorunması, kimliyindən asılı olmayaraq torpaqlarımıza pis niyyətlə soxulan hər bir insanın cəzalandırılması ideyası durur. Filmdə aktyorların emossional, maraqlı dialoqlarında biz Vətən anlayışını zəif mənəviyyatına qurban verən ata və doğulduğu, sevgisini tapdığı torpağa heç vaxt xəyanət etməyəcəyinə and içən örnək timsallı kamil bir övlad obrazını görürük.

Maraqlıdır ki, adıçəkilən bu film postsovet məkanında sərhədçi günündə dəfələrlə göstərilib. Rusiyanın kino ilə bağlı elektron portallarındakı tamaşaçı rəyləri göstərir ki, adıçəkilən bu Azərbaycan filmi haçalanmış ata-oğul münasibətinin gerçək və səmimi təqdimatı ilə Vətən məhəbbətinin bütün sevgilərdən üstünlüyünü pafossuz göstərməklə daha çox tamaşaçı toplamağı bacarıb. Elə filmin prokata çıxdığı zaman 21,5 milyon tamaşaçı toplaması



da bununla bağlı idi.

O ruhən kinoaktyor idi

Şahmar Ələkbərovun çəkildiyi filmlərdəki rolları bir-bir xatırlayıram. Yazının əvvəlində qeyd elədiyim kimi bütün rollar sanki onun boyuna biçilmişdi.

Səsi də, danışığı da, hərəkəti də aktyorun oynadığı rolu tamamlayırdı, yarımçıq qoymurdu. Biz Şahmar Ələkbərovu, onun oynadığı rolları niyə sevirik? Çünki, o anadan kino aktyorluğu sənəti üçün doğulmuşdu, çünki o ruhən kinoaktyor idi. Sovet dövründə çəkildiyi filmlər qədər müstəqillik illərində də çəkilə bilərdi, lakin vaxtsız ölüm buna imkan vermədi...

"Mən ki, gözəl deyildim" filmində Məzahir şən və zarafatcıldır. Onu sevməmək mümkün deyil. Tamaşaçıya elə gəlir ki, o filmdə sanki elə özünü oynayır. O, baş qəhrəman olmasa da, baş qəhrəman səviyyəsinə ucalır.

"Yeddi oğul istərəm" filmində Qəzənfər. "Babək"də Cavidan, "Qatır Məmməd" filminin baş qəhrəmanı xalqın əmin-amanlığı keşiyində duran cəsur bir simadır. Qatır Məmməd gəncəbasarlı xalq qəhrəmanı idi. O da sonda xəyanətin qurbanı olur. "Axırıncı aşırım"da, "Atları yəhərləyin"də, "Şəhərin yay günləri"ndə, "Arxadan vurulan zərbə", "Qəzəlxan" filmində Şahmar Ələkbəroıvun aktyorluq məharəti, peşəkarlığı, zəhməti aydın görünür.

### Həyat imtahanı - "Sahilsiz gecə"

Böyük sənətkar Şahmalr Ələkbərov hər dövrün kəskin ictimai məsələlərinə ekran dili ilə aydınlıq gətirən geniş diapazonlu aktyor ifası, filmlərdə oynadığı rolların dərin bədii təcəssümünü diqqətəlayiq tərzdə yarada bilirdi. O, özünün çəkildiyi 30-u yaxın filmdə, 100-dək diblyaj filmində, "Mozalan" studiyasında istehsal olunmuş filmlərdə də dublyajlarda səsləndirdiyi onlarla personajları tam dolğunluğu ilə tamaşaçıya çatdırmağa çalışırdı. Radioda "Ulduz" və "Molla Nəsrəddin" proqramının aparıcısı kimi tanınıb, televiziya tamaşalarında yaddaqalan obrazların ifaçısı olub.

Sənət fədaisi Şahmar Ələkbərovun səhhətindəki problemlər hər gün artmaqdaydı, stomatoloqda dili zədələnmişdi, çəkilişlərdə soyuqladığı üçün xoraya çevrilmişdi. O, mürəkkəb terapiyalara, xəstəliyin fəsadlarına mərdliklə dözürdü. Çənə sümüyünün cərrahiyyə əməliyyatı aparılmalı idi. O, ömrünün son yeddi ilini səhhətindəki probemlərlə mübarizədə keçirirdi. Hər şey isə "Firəngiz" filminin çəkilişindən başlayıbmış. Filmin baş qəhrəmanı Zübeydə müharibə dövründə əxlaqsızlığa düçar olmuş, yetim bir qızdır. Onu bu yola çəkənlər arasında bir erməni qadın da var. Bu film ekrana çıxdığı gündə böyük mübahisələr doğurdu. Bu film ekranda cəmi bir neçə dəfə nümayiş olunduqdan sonra ekranlardan biryolluq itdi...

Amansız xəstəlik Şahmar Ələkbərovu işləməyə, yaşamağa imkan vermədi. Müalicə üçün Almaniyaya aparılsa da çox pis vəziyyətdə geri qayıtdı. Bu gün Şahmar müəllim aramızda yoxdur. O cəmi 49 il ömür sürsə də, bu qısa zamanda çox iş görüb. Şahmarın ömrünü həsr etdiyi qiymətli rollar onu unudulmağa qoymur.

***İdris Şükürlü***

# Döyüş və dözüm qəhrəmanlığı

*(Əvvəli ötən sayımızda)*

### Düşmənin istehkamları əlimizdədir

Sentyabrın 27-də Azərbaycan ordusu əks-hücum əməliyyatına başladı. Elə ilk döyüşlərdə otuz ilə yaxın düşmənin əsarətində olan bir onlarla kəndimiz azad olundu. Başlanğıc uğurlu idi, bir addım da geri çəkilməyən ordu birləşmələri düşmənin uzun illərdən bəri möhkəmləndirilmiş istehkamlarını yazaraq, səngərlərini tapdayaraq yalnız irəli getdilər. İrəli getdilər ki, düşmənin zəbt etdiyi torpaq asudə nəfəs alsın, ana Vətən sevinsin, xalqımız fəxr edib öyünsün. Çox sevindirici hal idi ki, düşmən dirəniş göstərsə də, qısa müddətdən sonra müqaviməti qırıldı. Qoşun birləşmələrimizin aramsız və qətiyyətli hücumlarından sonra düşmən Füzuli istiqamətində önəmli mövqelərini atıb








qaçırdı. Əlbəttə hər bir yaşayış məskəni, kənd və qəsəbə asanlıqla azad edilmirdi. Məhz Elnur Əsədullayevin rəhbərlik etdiyi tank bölüyü düşmənin bir neçə zirehli texnikasını vurub yararsız hala salmışdı. Tankın, zirehli texnikanın içərisində yanıb külə dönəcəyindən qorxan düşmən qaçıb qanını qurtarmağa çalışır.

Söz yox ki, torpağı azad etməyə təşnkə olan rəşadətli əsgərlərimizin sərrast açdığı atəşdən yan keçə bilmirdilər.

Elnur od-alov içində uğurlu həmləç döyüşlərindən daim irəli ruhlandırırdı. Ayağından və üzündən yaralanmasına baxmayaraq döyüşçü yoldaşlarını od-alov içərisindəki meydanda tək qoymurdu.Şəhid qardaşlarına baxıb deyirdi, Siz qəhrəmanlıqla şəhid oldunuz, Vətən Sizi unutmaz. Qisasınızı alaraq, düşmən əlinizdən qaçıb canını qurtara bilməz. Artıq ölüm onları haqlayıb. Allahın köməyi ilə qələbə bizimlədir... Özü yaralı olmasına baxmayaraq şəhidlərimizi və ağır yaralı əsgərləri döyüş meydanından çıxarır, onlara ilk tibbi yardım göstərməkdə kömək edir, özü isə yenidən düşmənə "dərs" verməyə gedirdi. Döyüşü yarımçıq saxlamağı heç cür özünə sıxışdıra bilmirdi. Artıq geriyə yol yox idi, hədəf Şuşa, Laçın, Kəlbəcər, Xankəndi idi...

...Noyabr ayının 13-ü axşam idi. Baş gizir Elnur Əsədullayev Lerikdən ata evinə zəng vurdu. Anası şikayət deyir:

- Elnurun qəfil zəng vurmasını gözləmirdik. Səsindəki həyəcan, gərginlik hiss olunurdu. Oğul, neçə gündür zəng vurmursan, necəsən, bizim tərəfimizdən nigaran qalma. Atan da, qardaşın Elgün də yaxşıdır. Təkcə nigarançılığımız səndən ötrüdür. Hər gün Allaha dua edirəm ki, sağ-salamat olasan.

Elnur anasını dinləyib dedi: "Məndən ötrü nigaran qalmayın. Artıq biz hücumdayıq, inşallah yaxın vaxtlarda Qarabağı azad edib geri dönəcəyik. Bilirəm, uzun müddət evəç gələ bilmədiyimə görə mən günahkaram. Ancaq sizə söz verirəm ki, sağlıq olsun, qoy mühatibə qurtarsın, evə qayıdıb əvəzini çıxaram, nə qədər istəsəniz sizin yanınızda qalaram. Sizin üçün nə qədər darıxdığımı bilsəydin... İnanın ki, qələbə tezliklə bizimlə olacaq, buna arxayın olun... "Xudahafiz, tezliklə görüşərik, telefonu qapadıram".

Elnur danışanda atəş səsləri eşidilib. Valideynləri çox narahat olublar, Elnur bu nə deyib: "Başınıza dönüm, bəs biz bura niyə gəlmişik?! Müharibədir də. Top-tüfəng səsi sizdə həyəcan yaratsa da artıq biz buna öyrəşmişik. Allahın köməyi ilə hər şey yaxşı olacaq..."

Elnurun arxayınlıqla söylədikləri, inamlı sözləri valideyn olaraq ata-anasına güc, qüvvət verdi, onlarda təskin yaratdı.

Şinayət ana düşündü: "Qoy müharibə bitsin, balam Elnur da qayıtsın, qurban kəsərəm, pirlərə nəzir qoyacam, təki sağlıq olsun..."

Şinayət ana Allaha dua edə-edə qapıdan çölə çıxdı. Ürəyi sıxılırdı. Nə biləydi ki, sabah bu qapını qara xəbər döyəcək...

***(Davamı olacaq)***
***İdris Şükürlü***

# Əqidəsinə sadiqliyə əbədi nümünə



İmam Hüseyn-əqidə insanı, ölüm şərbətini dadaraq əqidəsinin ziddinə getməyən vəəqidəsi uğrunda doğmalarının, ailəsinin və hətta altı aylıq körpəsinin qanından belə keçən bir vəfa və əhdə sadiqlik nümünəsi kimi İlahi eşqin və şəxsiyyət zirvəsinin ən uca mərtəbəsinə layiq görülmüşdür. Yəqin elə bu səbəbdəndir 1382 il keçməsinə baxmayaraq,aşiqlər hər il o eşq günəşinin əzasını yeni şövq və ehtiramla yad edirlər.

Bəli, Lev Tolstoy doğru vurğulamışdır: "Zəburun, Tövratın və İncilin faciəsi onda oldu ki, onların Quranın qəhrəmanı kimi İmam Hüseyni olmadı." Doğrudur, İmam Hüseyn Quranın qəhrəmanı və Allahın buyurduğu kimi "Biz onu (Quranı) qoruyuruq" ayəsinin nişanıdır.

Ümummilli lider, ulu öndər Heydər Əliyevin "Bizim yolumuz Allah yoludur, Məhəmməd peyğəmbərin yolu və İmam Hüseynin yoludur" deməsi, Azərbaycan xalqının tarixən öz milli-mənəvi dəyərlərə sahib durmasına və islami dini dəyərlərinə sadiqliyin bariz nümünəsidir.

Biz İmam Hüseynlə xalqın nümayəndəsi deyilik, qan qohumluğumuz da yoxdur. Bəs nədir bizi bəşəriyyətin bu əzəmətli şəxsiyyətinə bağlayan yol?

- Haqq mübarizəsi!

Tarixən haqsızlıq, zülm və müsibətlər yaşamış, torpağından, ev-eşiyindən didərgin düşürülməsinə baxmayaraq, düşmənə boyun əyməmiş və haqq mübarizəsində tək qoyulan xalq və millət olaraq İmam Hüseyn və Kərbəla faciəsini dərk edib ,bu ağrılı müsibətin acısını hiss edirik.

Axı, bizim də Xocalımız var.

XX əsrin Kərbəlası olan Xocalı...

Azyaşlı körpələrə və qocalara qarşı işlənmiş ən qəddar cinayətləri yaşayan Xocalı..

Niyə məhz Xocalı?

Çünkü Kərbəla faciəsi kimi Xocalı faciəsi də, bütün bəşəriyyətə və insanlığa qarşı törədilən bir cinayətdir.

Bu faciə həm də əsrlər boyu ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların daha bir dəhşətli təzahürüdür, ən vəhşi xislətidir!

Dünyanın tanınmış ictima-siyasi xadimlərinin, tanınmış tarixçi, yazar və filosoflarının İmam Hüseyn və Kərbəla faciəsinə-islamla küfrün qarşı - qarşıya gəlməsi baxışlarını araşdıraraq bu nəticəyə gəlmək olur ki, dinindən, dilindən, irqindən, milli mənsubiyyətindənasılı olmayaraq İmam Hüseyin hər kəsin qəlbinə öz parlaq günəşinin şüalarını düşürə bilmişdir.Viktor Hüqo, Mahatma Qandi, Robendranat Taqor, Çarlz Dikkens, Edvard Braun, Tomas Karlayl, Boris Dokberi, Ceyms Korn, İqnaz Qoldziher kimi mütəfəkkirlərin İmam Hüseyn və Kərbəla haqqında söylədiyi çıxışları oxuduqca insan İslamın və bəşəriyyətin bu əzəmətli şəxsinə bir daha aşiq olur.

Mahatma Qandanin o məşhür ifadəsini qeyd etsək, yerinə düşər, O, deyib: "Mən İmam Hüseynin - islamın o böyük şəhidinin həyatını diqqətlə oxumuşam və kifayət qədər Kərbəla tarixinin səhifələrinə diqqət yetirmişəm. Mənə aydın olub ki, əgər Hindistan azad bir ölkə olmaq istəyirsə, gərək İmam Hüseyndən örnək alıb onun yolu ilə getsin".

Bəs bu böyük rəğbətin, hörmətin, məhəbbətin səbəbi nədir?

- Əqidə və əqidəyə sadiqlik.

Bəli, İmam Hüseyn əqidəyə sadiqliyin, haqq tərəfdarı olmağın, qorxuya qalib gəlməyin ən gözəl nümunəsi oldu - özü də əbədi nümunə!

Bu tarixi şəxsiyyəti yad edib,ehtiramını qorumaq adı altında müxtəlif ifratlara varmaq doğru deyildir. İmam Hüseyn və Kərbəla faciəsi adına qurulan təziyə mərasimlərini bayağılaşdıraraq, ağlaşma mərasimləri ilə İslamın və bəşəriyyətin əzəmətli şəxsinin və bu böyük tarixi hadisənin məlumatsız insanların gözündə cılızlaşmasına səbəb olmayaq.

Gəlin maarifləndirmə məqsədilə məclislər təşkil edib, haqqla batili, haramla halalı bir-birindən ayırmağın müşkülə çevrildiyi bir dövrdə haqqı nahaqdan, halalı haramdan, düzü səhvdən seçməyi bacaraq. İmam Hüseynin bəşəriyyətə vermək istədiyi mesaj da elə bu deyilmi?!

Haqq mübarizəsiylə Şərqdən-Qərbə, Şimaldan Cənuba səs salıb hər bir əqidəli insanın şüarına və dil əzbərinə çevrilən İmam Hüseyn hidayət çırağı və nicat gəmisidir. Eynilə, həzrəti Nuhun xilas gəmisi kimi. 1382 il öncə Kərbəla səhrasında olduğu kimi: "Babam Mühəmmədin dini və Allahın kitabı mənim ölümümlə yaşayacaqsa, onda ey qılınclar doğrayın məni" deyən şəxs nə ərəbdir nə əcəm, belə bir ilahi mərtəbəyə layiq olan şəxs bütün bəşəriyyətə öndər və yol yoldaşıdır.

***Səyyad Babakişiyev,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbənin əməkdaşı***

# Rayon ərazisində dizinfeksiya işləri davam etdirilir



Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Lerik rayonunda təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi davam etdirilir. 13 avqust 2021-ci il tarixində Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tapşırıqlarına uyğun olaraq Lerik şəhərində çoxmənzilli yaşayış binalarının həyətləri və pilləkən qəfəslərində, Arzuman Əsədullayev, Camal Şahiyev, Hacı Heydər, Həmid Həmidov və digər küçələrində, idarə və müəssisələrin inzibati binalarında, uşaq bağçaları, təhsil müəssisələrində, məscidlərdə koronavirus əleyhinə tibbi-profilaktik dezinfeksiya işləri aparılmışdır.

Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən qərargahın iclasları mütəmadi olaraq onlayn qaydada keçirir, mövcud vəziyyət təhlil edilir, rayon icra hakimiyyəti başçısı yanında qərargahın üzvlərinin və ərazi icra nümayəndəliklərində yaradılmış mobil qrupların fəaliyyəti daim nəzarətdə saxlanılır, yoluxma hallarının qarşısının alınması üçün zəruri operativ tədbirlərin həyata keçirilir.

Əhali arasında peyvəndləmə işləri ilə bağlı əhali arasında maarifləndirmə işləri aparılır. Əhalinin peyvəndə cəlb edilməsi daim nəzarətdə saxlanılır.

Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə rayon icra hakimiyyəti başçısı aparatında, iri idarə, müəssisə və təşkilatlarında xüsusi karantin rejimi qaydalarına riayət edilməsinə nəzarətin həyata keçirilməsi üçün müvəkkil şəxslər müəyyən edilmişdir. Eyni zamanda qərargah üzvləri tərəfindən rayon polis şöbəsinin əməkdaşlarının iştirakı ilə ticarət və iaşə obyektlərinə, idarə və müəssisələrə reydlər təşkil edilmiş, xüsusi karantin rejimi qaydalarına riayət olunmasına nəzarət artırılmışdır. Reydlər zamanı xüsusi karantin rejimi qaydalarını pozan hüquqi və fiziki şəxslər, vətəndaşlar cərimə edilmiş, ticarət və iaşə obyekti sahiblərinə, idarə rəhbərlərinə xəbərdarlıqlar edilmişdir.

Bütün yaşayış məntəqələrində dəfn mərasimlərində kütləvi toplanmanın, yas mərasimlərinin keçirilməsinin qarşısının alınması üçün zəruri tədbirlər həyata keçirilir.

Lerik Rayon İcra Hakimiyyəti tərəfindən ölkədə koronavirus infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilmiş xüsusi rejimin qaydalarına əməl edilir və rayon ərazisində icrası tam olaraq nəzarətdə saxlanılır.

1.qxd 03.09.2021 11:07 Page 4



# Lerik 2021-ci ilin I yarısında



*Nizam Muradov,*
*Lerik Rayon Statistika İdarəsinin rəisi*

2021-ci ilin birinci yarısında rayon iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı, tikinti, abadlıq və quruculuq işlərinin görülməsi üçün bir sıra tədbirlər həyata keçirilmiş və nəzərəçarpacaq dərəcədə inkişafa nail olunmuşdur.

Bunu aşağıdakı sahələrdən daha aydın görməkolar.

**Kənd təsərrüfatı:** 2021-ci ilin yazında yazlıq bitki toxumlarının səpilməsi işi tam sürətlə həyata keçirilmişdir.

Yaz əkininin yekun məlumatlarına əsasən, cəmi 2146,7 ha yazlıqdənli, dənli paxlalı, kartof, tərəvəz və digər bitkilər əkilmişdir. O cümlədən 173 ha sahədə lobya, noxud və sairə paxlalılar, 1505 ha kartof, 343,5 ha sahədə müxtəlif növ tərəvəz və 97 ha sahədə digər yazlıq bitkilərinin toxumları, 21,2 ha yazlıq buğda, 1,5 arpa, 1,5 ha günəbaxan səpilmişdir.

**Heyvandarlıq** sahəsində həm mal-qaranın baş sayı,həmdəməhsul istehsalı dinamik olaraq artır. Keçən ilin eyni dövründənkindən iribuynuzlu mal-qaranın baş sayı 2,4%, qoyun və keçilərin baş sayı isə 0,1%, süd istehsalı 0,2% artmışdır. Diri çəkidə ət istehsalı 7,0% azalmışdır. Bunun əsas səbəbi "Bəyoğlu" quşçuluq müəssisəsinin fəaliyyətinin zəif olmasıdır. Yumurta istehsalı 0,5%, yun istehsalı isə 9 sentner və ya 0,4% artmışdır.

Artıq 2021-ci ilin məhsulu üçün əkilmiş payızlıq dənlilərin yığımı başlanmışdır.

01 iyul 2021-ci ilə 1471 ha sahə biçilib döyülmüş və 3502,4ton məhsulgötürülmüşdür. Hər hektardan məhsuldarlıq 23,8 sentolmuşdur. Taxıl biçini davam edir.

Əsaslı tikinti: 2021-ci ilin ilk 6 ayında bütün maliyyə mənbələrində, tikinti kompleksində 687,2 min manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövründən 88,1 min manatçoxtəmir tikinti işləri icra edilmişdir.

**Nəqliyyat:** Nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsindəfəaliyyət göstərən fizikişəxslər tərəfindən yanvar-iyun aylarında 1141,3 min manat gəlir əldə edilmişdir ki, bu da keçən ilin eyni dövründəkindən 2,3% azdır.

**Rabitə.** Rabitə müəssisələri əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlə 347,5 min manatlıqvəya ötən ildəkindən 41,5 min manat çox rabitə xidməti göstərmişdir.

Rabitə xidmətinin çox hissəsi, bilavasitə əhaliyə göstərilmişdir.

**Pərakəndə ticarət dövriyyəsi və ödənişli xidmət.** 2021-ci ilin I yarısında pərakəndə ticarət dövriyyəsi və ödənişli xidmətlərin həcmi azalmışdır. Belə ki, altı ay ərzində əhaliyə 49181,4 min manatlıq istehlak malları satılmış və 7665,9 min manatlıq ödənişli xidmətlər göstərilmişdir.

Pərakəndə əmtəə dövriyyəsi 14,4 faiz və ya 9366,3 min manat, ödənişli xidmətlərin həcmi isə 11,7 faiz və ya 1013,7 min manat keçən ilin müvafiq dövrünə nisbətən azalmışdır.

## DEMOQRAFİK VƏZİYYƏT

İlkin hesablamalara görə2021-ci ilin iyul ayının əvvəlinə rayon əhalisinin sayı 86,7 min nəfər olmuşdur.

Bu ilin birinci yarım ilində 299 körpə doğulmuşdur. Keçən ilə nisbətən doğum əmsalı azalmışdır. Ölümün əmsalı isə 0,1 olmuşdur.

Rayonda 72 nigah qeydə alınmışdır, boşanmaların sayı isə 22-dir. Rayona gələnlərin sayı 28 nəfər, gedənlərin sayı isə 10 nəfər olmuşdur.

## KƏND TƏSƏRRÜFATI

2021-ci ilin ilk 6 ayında kənd təsərrüfatı məshullarının ümumi buraxılışı 16567,7 min manattəşkiledir.

Bu 2020-ci ilin eyni dövründəkindən 617,7min manatvəya3,9% çoxdur. Bunun 14713,6 min manatı heyvandarlığın qalan 1854,1 min manatı bitkiçiliyin payına düşür.

Kənd təsərrüfatı müəssisələri, əhali və fermer təsərrüfatları üzrə yazlıq bitkilərin əkini başa çatmışdır. Belə ki, 01 iyul 2021-ci il vəziyyətinə 2146,7 ha sahədə müxtəlif növ yazlıq bitkilər əkilmişdir.

Bu əkinlərdən199,7 ha yazlı q dənli və dənli paxlalı bitkilər,1505 ha kartof, 343,5ha hər cür tərəvəz və 98,5 hektarı digər bitkilər olmuşdur. 2020-cuilinyazəkinlərindən60,5 ha vəya2,9% çoxəkinəkilmişdir.

01 iyul 2021-ci ildə 1471 hektar payızlıq taxıl biçilmiş və 3502,4 ton məshul istehsal olunmuşdur. Hər hektardan 23,8 sentner məshul götürülmüşdür ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 0,8 sentner azdır. Taxıl yığımı davam edir, eyni zamanda kartof və tərəvəz yığımı da başlanmışdır.



2021-ci ilin birinci yarısında diri çəkidə 1266,4 ton mal-qara və quş əti, 12360,1 ton süd, 211,2 ton yun (fiziki çəkidə) və3091 min ədəd yumurta istehsal edilmişdir.

Ümumilikdə 2020-cuilineynidövrüilə-müqayisədə 51,9 ton çox ət, 28,2 ton çox süd və 14 min ədəd çox yumurta istehsalı edilmişdir. Yun istehsalı isə 0,9 ton artmışdır.

2020-ci ilin iyulun 1-i vəziyyətinə nisbətən 881 baş qara-mal, o cümlədən 361 baş inək və camış, 122 baş qoyun-keçi artmışdır.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə rayonun inzibati ərazi dairələrinin çoxunda mal-qaranın və qoyun-keçilərin baş sayı artmışdır.

2021-ci ilin birinci yarısında keçən ilin eyni dövründəkinə nisbətən kənd təsərrüfatı məhsullarının ümumi həcmi artmışdır.

Rayon da fəaliyyət göstərən 23qeyri-dövlət kənd təsərrüfatı müəssisələrinin əsas məşğuliyyəti qoyunçuluqdur. O cümlədən 1 kənd təsərrüfatı müəssisəsi quş əti istehsalı ilə, 1 müəssisəisə bitkiçilikilə məşğuldur.

01 iyul 2021-ci ilə qoyun-keçilərin baş sayı kollektiv təsərrüfatlarında 16977 baş və ya ümumi qoyunların 15,2%-ni təşkil edir. Qoyun-keçilərin qalan hissəsi isə şəxsi təsərrüfatların payına düşür.

Rayonumuzun əməkçiləri bilirlər ki, bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının ən çox gəlir gətirən sahəsi ilə məşğul olmaq lazımdır. Hazırda təsərrüfatın ən sərfəli sahəsi maldarlıq və qoyunçuluqdur. Ət və ət məhsullarının qiyməti hal-hazırla 9-10 manatdır. Bu hesaba rayonun ayrı-ayrı kəndlərind ə şəxsi təsərrüfatlarda çoxlu sayda qara-mal və qoyun-keçi saxlanılır.

Muğan qışlağı və rayonun yaylaqlarında 94 mindən çox qoyun-quzu saxlanılır. Lakin son vaxtlarfermer təsərrüfatlarının Muğan qışlağından əkinlə əlaqədar sıxışdırılması, rayon üzrə xırda buynuzlu mal-qaranın azalmasına səbəb olur.

Rayonun Pirasora, Osiyodərə, Çayrud, Veri, Şingədulan və s. kənd ərazi dairələrinin kəndlərində hər bir şəxsi təsərrüfatlarda 6-11 baş qara-mal və 30-50 baş qoyun-keçi saxlayan təsərrüfatlar ildən-ilə artmaqdadır. Hətta bəzi şəxsi təsərrüfatlar 500-800 və yuxarı sayda qoyun-quzu saxlayırlar.

Heyvandarlıqla yanaşı rayonun kəndlərində bitkiçilik məhsullarından kartof, tərəvəz, taxılvə digər əkin növləri də inkişaf etdirilir. Bitkiçilik məhsullarının əkilib yığılması üçün kifayət qədər kənd təsərrüfatı texnikası yoxdur. Mövcud texnikanın bir qismi köhnədir və bu günkü tələbata cavab vermir. Xüsusi ilə şum traktorları və taxıl biçən kombaynların yarısı köhnəlmiş vəziyyətdədir.

01 iyul 2021-ci ilə rayonda müxtəlif təşkilatı hüquqi formalı 237 vahid kənd təsərrüfatı qurumları mövcuddur və rəsmi qeydiyyatdan keçmişlər.

## MEŞƏ TƏSƏRRÜFATI

Lerik rayonunun ərazisində 40,4 min ha meşə sahəsi mövcuddur. Meşələrin demək olar ki, hamısı enliyarpaqlı ağaclardan ibarətdir.

## SƏNAYE

2021-ci il iyulun 1-i vəziyyətinə rayonda 4 sənaye müəssisəsi fəaliyyət göstərmişdir. Bunlardan biri Elektirik Paylayıcı Şəbəkəsi, digərləri Rayon SuKanali zasiya İdarəsi, Lerik Rayon Modul Elektrik Şəbəkəsi və Lerik Rayon Qaz İstismar İdarəsidir.

Bu təşkilatlar 2021-ci ilin 6 ayında 1899,7 min manatlıq məhsul istehsal etmişlər. Bu da 2020-ci ilin 6 ayı ilə müqayisədə 55,4 manat və ya 2% azalmışdır.

Bu müəssisələrdə168 nəfər işçi çalışır ki, bu da əvvəlki illərdən 35 nəfər azdır.

Bu ilin 6 ayıərzində hər işçinin orta aylıq əmək haqqı 636,8 manat olmuşdur. 2020-cuin 1-ci yarısı ilə müqayisədə 75 manat və ya 13,3% əmək haqqında artma olmuşdur.

Yuxarıdakı fikirlərdən aydın olur ki, sənaye müəssisəsində tez-tez islahatlar getdiyi üçün işçilərin sayı habelə əmək haqqı dəyişilir.

## R A B İ T Ə

Rayonda iki rabitə təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlardan biri poçt xidməti, digəri isə telekommunikasiya xidmətidir.

2021-ci ilin yanvar-iyun aylarında rabitə sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən istehlakçılara faktiki qiymətlə 347,5 min manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 7,1% çox rabitə xidməti göstərmişdir.

Xidmətlərin 7,6%-i dövlət müəssisələrinə qalan 92,4%-i isə əhaliyə göstərilmişdir.

2021-ci ilin I yarısında rabitə sektorunda 140 nəfərfəhlə və qulluqçu çalışır və ötən 6 ayda hər bir işçinin orta aylıq əmək haqqı 356,48 manatdır ki, bu da 2020-cu ilin eyni dövründən 6,2 manat və ya 1,7% azdır.

## NƏQLİYYAT

İqtisadiyyatın digər sahələrində olduğu kimi rayon nəqliyyat sahəsinin inkişafında cari ilin altı ayında pandemiya səbəbindən azalma müşahidə edilmişdir.

Rayonun bütün nəqliyyat sektorundan yük və sərnişin daşınmasından 1141,3 min manat gəlir əldə olunmuşdur.

Əhaliyə göstərilən nəqliyyat xidmətinnin həcminin azalmasına baxmayaraq, xidmətin keyfiyyəti yaxşılaşmışdır.

Nəqliyyat sektorunda 120 min ton yük və 520 min nəfər sərnişin daşınmışdır ki, bu da keçən ilin eyni dövründən müvafiq olaraq 15,5% və 18,9% azdır.

2021-ci ilin 6 ayında yük daşımasından 809,1 min manat, sərnişin daşınmasımdan 332,2 min manat gəlir əldəedilmişdir.

## ƏSASLI TİKİNTİ

Rayon ərazisində2021-ci ilin altı ayı-ərzində bir tikinti təşkilatı fəaliyyət göstərməkləəsasən təmir işləri ilə məşğul olmuşdur.

Cari ilin yanvar-iyun aylarında tikinti təşkilatları 687,2 min manatlıq iş görmüşlər ki, bu da 2020-cu ilin 6 ayı ilə müqayisədə 88,2 min manat və ya 11,5% çoxdur.

Tikinti işlərinin 687,1 min manatı isə cari təmir işləri olmuşdur.

Tikinti təşkilatlarında 91 nəfər fəhlə və qulluqçu çalışırlar. Bunlara 6 ay ərzində 220 min manat əmək haqqıverilmişdir və hər işçinin orta aylıq əmək haqqı 403 manat təşkil edir ki, bu da 2020-cu ilin eyni dövründən 5 manat və ya1% çoxdur.

2021-ci ilin 6 ayı ərzində əhalinin vəsaiti hesabına 9 şəxsi yaşayış evi tikilib istifadəyə verilmişdir ki, bunların da ümumi sahəsi 923 $m^2$-dir. İstismara verilmiş yaşayış evlərinin dəyəri 297 min manatdır. Keçən ilin müvafiq dövründən 1 ədəd çox yaşayış evi tikilib istifadəyə verilmişdir.

## İSTEHLAK BAZARI

Pandemiya iləəlaqədar rayonunistehlakbazarında da durğunluq yaranmış və sosial-iqtisadi inkişafı xarakterizə edən əsas göstəricilərdən olan əmtəə dövriyyəsi və əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi azalmışdır.

2021-ci ilin 6 ayında rayon əhalisinə 49181,4 min manatlıq və ya 2020-ci ilin eyni dövründə olduğundan 16 faiz az geniş çeşidli istehlak malları satılmış və 7665,9 min manat ödənişli xidmət göstərilmiş, bu da keçən ilin eyni dövründən 11,7% azdır.

Pərakəndə əmtəə dövriyyəsi və əhaliyə göstərilən ödənişli xidmətlərin ümumi həcmi aşağıdakı kimi olmuşdur:

İstehlak bazarının müxtəlif çeşidli əmtəə ehtiyatları ilə tam və dolğun təminolunması, əhalinin pul gəlirlərinin yüksəlməsi nəticəsində alıcılıq qabiliyyətinin artması pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin həcminin getdikcə artmasına öz müsbət təsirini göstərir.

Pərakəndə və iaşə ticarət xidməti dövriyyəsinin artmasının demək olar ki, hamısı özəl sektorun hesabına təmin edilmişdir.

## ƏMƏK BAZARI

Lerik rayonunda işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhali 42730 nəfər olmuşdur. O cümlədən, 39509 nəfər məşğul əhali, onlardan muzdla işləyənlər 5655 nəfər, işsiz əhali isə 3221 nəfər olmuşdur.

Son vaxtlar ölkə başçısının tapşırığına əsasən respublikanının bütün regionlarında, o cümlədən də rayonumuzda yüzlərlə işçi qüvvəsi ayrı-ayrı sahələrdə ictimai işlərə cəlb edilmişdir.

## REGİONLARIN SOSİAL-İQTİSADİ-İNKİŞAFI

Azərbaycan Respublikasının 2020-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı ilə əlaqədar daxili yollar bərpa edilir, yeni turizm obyektləri tikilir.

Hazırda rayonumuzda bir sıra kənd yollarında təmir-bərpa işləri aparılır.

## YENİ AÇILMIŞ İŞ YERLƏRİ

2021-ci ilin təkcə II rübündə cəmi 574 yeni iş yeri açılmışdır. Bunların hamısı fiziki şəxslərindir.

---

*Yeni kitab*

# "Bu dünya mərdlərindir"

Babəli Sakitin (Cavadov) "Təknur" nəşriyyatında "Bu dünya mərdlərindir" adlı ikinci kitabı nəşr edilmişdir. Müəllifin yeni şeirlər və poemalar kitabında Vətənə, yurda, el-obaya məhəbbət, sevgi duyğuları, milli-mənəvi dəyərlərə, haqqa-ədalətə çağırış motivləri, insan taleləri, haqqın-ədalətin şər üzərində qələbəsi əsas yer tutur və diqqəti cəlb edir.




Babəli Cavadov həyatda necədirsə, qələmə aldığı əsərlərində də eləcədir. O, hiss və duyğularını zamanın gerçəkliklərini təsvir edərkən real hadisələrə əsaslanır, həyat həqiqətlərinə sadiq qalır. Şair insanları sevir, düzgünlüyü həmişə uca tutur. Vətənsevərliyi, yağı düşmənə nifrəti kitabda yer almış, "Qarabağ bizimdir, Azərbaycandır!" poemasında öz əksini tapmışdır. Şair burada Ordumuzun Qəhrəman əsgər və zabitlərinin hünərini, rəşadətini, cəsurluğunu ilhamla tərənnüm edir. O, buradşa işğalçı və hiyləgər düşmənə nifrətini bildirir, Ali Baş Komandan İlham Əliyevin qətiyyətini, sərkərdəlik məharətini alqışlayır, Azərbaycan həqiqətlərini dünyaya yaydığı üçün onunla fəxr etdiyini bildirir.

"İgid oğul istərəm" poeması da oxunaqlıdır. Bu poema Əfqanıstanda və Qarabağda hünər göstərmiş Ərzulla Şıxəliyevə həsr edilmişdir. Əsərin qəhrəmanı Ərzulla həm də "Sovetskaya Kalmıkiya" gəmisi qəzaya uğrayan zaman öz həyatını təhlükəyə ataraq insanların həyatını xilas etmişdir. Babəli Sakit öz əsərinə bu mövzunu seçmiş, bir növ Ərzullanın enişli-yoxuşlu həyat yoluna işıq salmışdır.

Əlbəttə, kitabda öz əksini tapmış şeirləri bir-bir təhlil edib mənalandırmaq, oxucu diqqətinə çatdırmaq fikrində deyilik. Bunu şeir-sənət vurğunlarının öhdəsinə buraxırıq və inanırıq ki, "Bu dünya mərdlərindir" kitabı oxucu marağına səbəb olacaq, müəllifini daha çox tanıdacaq.



***Xalıq Əbutalıb oğlu***

---



# Təbrik edirik!

Fikrət Əliyevi əmək fəaliyyətinin sonrakı səkkiz ilində çox xeyirxah, vacib və nurlu bir peşə ilə məşğuldur. O Lerik Rayon İşıqlandırma İdarəsində elektrik işləyir. Lerik şəhərinin küçələrinin işıqlandırılmasında böyük zəhməti vardır. Hər dəfə işıqlı küçə və xiyaban boyu rahatlıqla ötən adamlar bu şəraiti yaradanlara minnətdarlıq ifadə edirlər. Bu minnətdarlıqdan Fikrətə də pay düşür.

**62 yaşının tamam olması səbəbindən Fikrət Əliyevi təbrik edərək ona daha mənalı ömür sürməyi arzu edirlər: həyat yoldaşı, Əfsər Həmidov, Möhübbət Ağayev, Ədalət Məmmədov, Asəf Həmidov.**

---



**Muradəli Hüseynov,**
***Bradi kəndi***

## Gördüyün işləri özgəyə yaxma

***Mənfur ermənilərin XXI əsrin əvvəllərində Türk mənşəli insanlara qarşı soyqırım törətməsi, Avropa ölkələrinə gedib özünü soyqırıma məruz qalan xalq kimi qələmə verməsi məni bu şeiri yazmağa sövq etdi.***

Yelkənli gəmi tək üzürsən qanda,
Soyqırım törətdin Azərbaycanda.
Bakıda, Qubada, həm Lənkəranda,
Tökdüyün qanları özgəyə yaxma.

Günahsız milləti özün qırmısan,
Neçə kənd, şəhəri sən dağıtmısan.
Qatilsən, canisən, cinayətkarsan,
Etdiyin günahı özgəyə yaxma.

Sən haray çəkirsən bütün dünyaya,
Neçə Türkü qırdın, boyadın qana.
Soyqırım törətdin neçə insana,
Nahaq qan tökməyi özgəyə yaxma.

Qaçırsan Berlinə, gah Fransaya,
Az qalıb uçasan, enəsən aya.
Tökdüyün o qanlar heç gəlməz saya,
Sağalmaz ləkəsən sağlam dünyaya.

Təmiz insanlara yaxırsan qara,
Bəsdir, ləkə yaxma günahsızlara.
Dünyanı bezdirib gətirmə zara,
Etdiyin işləri özgəyə yaxma.

Xocalı qırğını sən törətmisən,
Gördüyün işlərə kim deyər əhsən.
Qan tökən qatilsən, cinayətkarsan,
Qocanı, körpəni öldürən sənsən.

Bu gün car çəkirsən bütün dünyaya,
Döndərdin Ağdamı Xirosimaya.
Sağalmaz xərçəngsən sağlam dünyaya,
Gördüyün işləri özgəyə yaxma.

Gəncədə, Tərtərdə qırğın törətdin,
Neçə dinc sakin sən qəltan etdin!
Əlin nə bacardı, sən onu etdin,
Tökdüyün qanlardan utanmırsanmı?

Bütün məbədləri sən dağıtmısan,
Ağdamda məscidə donuz salmısan.
Cansız baş daşlardan qisas almısan,
Gördüyün işləri özgəyə yaxma.

Ruhlar diyarıdır baxırsan hər yan,
Neçə kənd, şəhəri etmisən viran.
Bəllidir yurdumda axıtdığın qan,
Tökdüyün qanları özgəyə yaxma.

---



## Ötən əsrdən soraqlar

***Lerik rayonunun tanınmış şəxsiyyəti, millət təəssübkeşi, xeyriyyəçi Əyyub İsgəndərov (soldan birinci), kinorejissor İzzət Əliyev, Əməkdar həkim Balağa Bağırov 150 il ömür sürmüş dağların qoca qartalı Mahmud Eyvazovla birlikdə.***

---

# Koronavirusun yeni simptomları: qusma, ishal...

***Koronavirusun yeni ştammlarının ortaya çıxması səbəbindən onun klinik mənzərəsi daim dəyişir.***



İndi COVİD-19-un əlamətləri ishal, ürəkbulanma, qusma və qarın ağrısı kimi qastroentrit simptomlarıdır.

Həkimin sözlərinə görə, koronavirus xəstəliyinin başlanğıcında xəstələr bu əlamətlərin olduğunu deyirlər.

"Əksər hallarda xəstələr bunun koronavirus olmadığını, adi bağırsaq infeksiyası olduğunu düşünür və səhv müalicə etməyə başlayırlar. Xəstə qusma və ishal nəticəsində çoxlu maye və elektrolit itirir.

Çox vaxt belə xəstələr xəstəxanaya orqanizmin çoxlu su itirmiş vəziyyətində daxil olurlar", - deyə mütəxəssis bildirib.

O vurğulayır ki, isti havalarda xəstələrə nəzarət etmək daha çətindir, çünki bədənin susuz qalması səbəbindən böyrəkdə ciddi problemlər yarana bilir.

Bu kimi ağırlaşmalar ambulator mərhələdə antiviral dərman qəbul edən insanlarda da müşahidə olunur.

---

## Allah rəhmət eləsin

"Azad Təfəkkür" qəzetinin baş redaktoru İdris Şükürlü və qəzetin yaradıcı heyəti yazıçı, tərcüməçi və publisist Səadət Abbasovaya, bacısı

**Elnara Cabbar qızının**

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Mətləb Axundov, Tofiq Bədəlov, İdris Şükürlü, Rüstəm Məlikov, Rəşad Axundov, Əlixeybər Axundov, Əvəz Abdullayev, Əli Rzayev, Ağaməli Ədiloğlu tanınmış jurnalist

**Fəxrəddin Fərzəliyevin**

vəfatından kədərlənir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin kollektivi
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Həzi Aslanov küçəsi, 1
Tel: (070) 200-21-54

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Sifariş: 98



İdris Şükürlünün suallarına CAVABLAR:

I sual:...

I cavab: Xoş gününüzü görüm, İdris müəllim. Məlumat üçün deyim ki, bu ilin aprel ayında COVİD-19-a yoluxdum, amma mart ayında vaksin vurmuşdular deyənə xəstəlik yaxamı tez buraxdı. Dava-dərmanın təsirindəndi, ya başqa səbəbdəndi, bilmirəm, maşallah, indi özümü 19 yaşlı oğlan kimi hiss edirəm. Ruslar demişkən, net xudo bez dobro. Əlbəttə, hər qaranlıq gecənin bir işıqlı gündüzü olmalıdır.

Qaldı ədəbiyyat aləminə... Azərbaycan kontekstində də, dünya kontekstində də özümü çayda balıq kimi hiss edirəm. Şükür, bizə nə olub ki? Romanlarım "Azərbaycan" , "Literaturnaya Azərbaycan" jurnallarında, hekayələrim "Ulduz", "Ədəbiyyat" və "Yurd" dövrü mətbuatında işıq üzü görür, romanlarım rus və ingilis dillərinə tərcümə olunur, iki romanım ABŞ-da, Nyu-York şəhərində, "Lulu" nəşriyyatında çap olunub. Deyim ki, ABŞ getməyə ehtiyac yoxdur, kitabları internet vasitəsi ilə "Amazon" firmasında sifariş verib Bakıya gətirtmək olur

II sual:Nə gözəl, Qəni müəllim, təbrik edirəm. Sizin uğurunuz elə Azərbaycan ədəbiyyatının uğurlarıdır. Bəlkə oxuculara özünüz haqqında qısa məlumat verəsiz?

II cavab: Olar. 1956-cı ildənəm. Mən Lerik rayonunun Durqan kəndində doğulmuşam. Məktəbə iki il tez getmişəm. Beşinci sinifdə oxuyanda Bakıya köçmüşük. Bakının 230 saylı, daha sonra 156 saylı məktəblərində təhsilimi davam etdirmişəm. Orta təhsilimi bitirib Politexnik İnistitutuna girmişəm. Ali məktəbi 1977-ci ildə bitirib zavodlarda mühəndis, sex ustası, sex rəisi, şöbə rəisinin müavini vəzifələrində işləmişəm. Birinci Qarabağ müharibəsinin iştirakçısıyam, müharibə veteranıyam.199-cü ildən fərdi sahibkarlıqla məşğul olmuşam, başımı dolandırmışam.

III sual: Üzr istəyirəm, Qəni müəllim, Politexnik inistitutu, gərək ki, nə şair, nə də nasir hazırlamır...( gülür)

III cavab: (gülür) Ümumiyyətlə, hansı inistitut nasir, ya şair hazırlayır ki? Heç biri. Adlı-sanlı M.Qorki adına Ədəbiyyat inistitutunu hər il yüzlərlə müdavim qurtarır.Hamısının nasir, ya şair olduğunu demək mümkün deyil. Fikrimcə, adam anadan yazıçı doğulmalıdı.Sonradan yazıçı , ya şair olmurlar. Başqa cür desək, Allah vergisi yoxdusa, hər hansı təhsillə yazıçı olmaq mümkün deyil. Cızmaqaraçı olur.

IV sual: Uzağa düşdün mövzudan. Yaradıcılıq yolunuz barədə qısa məlumat, zəhmət olmazsa...

IV cavab: 1969-cu ildə ilk yazım "Pioner" jurnalında dərc olunub. 1976-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində "Heç nə itmir" hekayəm çıxdı. İnistitutun dördüncü kursunda oxuyurdu. Siyasi iqtisadiyyatdan bizə dərs deyən rəhmətlik İsaməddin müəllim məni hər yerdə tərifləyirdi:"- Böyük yazıçı olacaq."- deyirdi. 1984-cü ildə ilk kitabım çıxdı.Beləcə yazıçı oldum...

V sual:

V cavab: Dediyiniz bölgü Sovet dövrünün məhsulu idi. Bizim nəsil adqoydudan yan keçdi, dövran dəyişdi, ədəbiyyat rövnəqini itirdi.Əlbəttə, mənim ədəbiyyata gəlişim 1976-cı ilə təsadüf elədyindən özümü "yetmişinci"lərdən saya bilərəm, həmçinin, yazıçı kimi püxtələşməyim səksəninci illərə düşdüyündən özümü "səksəninci"lərdən də saya bilərəm. Onu da deyim ki, bu gün ədəbiyyata nəfəs verən də elə "yetmişincilər"dir. Həmin dövrdə ədəbiyyata gələnlər artıq zəmanəmizin görkəmli şairləri, yazıçıları, publisistləridir. Qələm yoldaşlarımdan hamısını sadalasam çox vaxt aparacaq, amma bəzilərinin adını çəkməyə özümə borc bilirəm. Ağacəfər Həsənli, Akif Əhmədgil, Tofiq Nurəli, Fəxri Müslüm, Afaq Məsud və başqaları...

VI sual:..

VI cavab: İdris qardaşım, bu sualın cavabı bir monoqrafiyaya sığmaz. Amma uzunçuluq eləməyəcəyəm, çalışaram lakonik olum.Gəlin, asanlıq xatirinə, ədibi inşaatçı ilə müqaisə edək.Ədib üç inşaat materialından istifadə edir: oxuduqlarından, gördüklərindən, təxəyyüldən. Təxəyyül Allah vergisidir, hər şeyin başında dayanır. Vəssəlam, dördüncü yoxdur. Ədib nə qədər çox oxusa, o qədər də əlindəki materialların çeşidi zəngin olaur. Hətta, oxuduğu maraqsız, zəif kitablar da ədibə yazı-pozu prosesində lazım olur. Təcrübəmdən bilirəm. Kiçik bir qəsəbə kitabxanası evimizin yanında idi. Orda olan bütün kitabları oxumuşdum, V.Leninin 55 cildliyindən, K.Markısın "Kapitalından" , bir də mamaçalığa aid bir qalın kitabdan başqa. Əlacsızlıqdan "Kapitalı" da, Leninin 55 cildliyini də, hətta, "Mamaçılıq" kitabını da oxudum. Əlbəttə, zəngin həyat təcrübəsi də ədəbi fəaliyyətə güclü təsir edir. Onsuz ədəbiyyat yoxdur. Amma ədibin təxəyyülü olmasa əsl ədəbi nümunələr, nə roman, nə hekayə, nə şeir, nə poema, nə dram əsəri yarada bilməyəcək,nə oxuduqların, nə həyat təcrübəsi bu işdə ona kömək eləməyəcək.Bir sözlə, təxəyyül sement, kəc, gips, alçı rolunu oynayır. Onsuz ucaldılan divar tez uçar. Ədibləri iki yerə ayırmaq lazımdı, təxəyyüllü və təxəyyülsüz. Yəni, Allah vergisi olan yerdə ədəbiyyat var, yoxdusa,yazılanların həcmindən asılı olmayaraq kənara atılmalıdılar. Onsuz da zamanın sınağından çıxa bilməyəcəklər... Biz bunun şahidiyik.

VII sual:...

VII cavab: Ədəbiyyatın vəzifələrini bir sözlə ifadə eləmək mümkün deyil. Çox geniş bir anlamdı. İnsanın tərbiyəsi, dünya görüşü, özünüdərki ədəbiyyatla bağlıdı. Doğulduğum cənub bölgəsinin abu-havasını, etnik fərqliliyini, geniş dünya ilə bağlılığını, arxeoloji keçmişini, tarix və etnoqrafiyasını, yüz illik keşmişini, kaloritli insanlarını, gözəl təbiətini ifadə edən "Qızıl Xotuğ" romanım görkəmli yazıçı Məmməd Orucun təbiri ilə desək "Azərbaycan ədəbiyyatında analoqu olmayan bir romandır." Görkəmli şair Ağacəfər Həsənli əsəri belə qiymətləndirib:"İki yüz səhifəlik romanı gülə-gülə, təbəssümlə, qımışa-qımışa oxudum". Yaxud "Karxana" romanımı götürək. Bakının, Abşeronun yüz illik tarixinə bir ekskursdu. Oxucunu dalımca aparmaq üçün süjetə kriminal çalarlar qatmışam. Amma məqsədim Abşeronda baş verən hadisələri nəql eləməkdi.

VIIIsual:

VIII cavab: I Qarabağ müharibəsindən sonra yazılan bədii əsərlərin çoxunu mənfi qiymətləndirirəm.Onların sayının az-çoxluğunu demək çətindi, saymamışam. Məni düşündürən budur ki, uduzulmuş müharibə barəsində necə yazasan? Döyüşçülərin qəhrəmanlığından yazsan, oxucular soruşacaq ki, bəs, niyə uduzmuşuq? Alçalmağımızdan yazsan, oxucu anlamayacaq, qəbul eləməyəcək. Amma II Qarabağ savaşı hər şeyi yerbəyer elədi. İndi roman da yazmaq olar, poemada yazmaq olar. Yəni müəllifin əl-qolu azaddır, istədiyini yaza bilər. Qəhrəmanlıqdan, mərhumiyyətlərdən, qız-gəlinlərimizin alçaldılmasından , düşmənin namərdliyindən, alçaqlığından , nədən istəsən, yazmaq olar. Hamı onu olduğu kimi qarşılayacaq. Çünki müharibə qalibiyyətlə bitib. Qalibləri isə heç kim mühakimə eləmir. Mən I Qarabağ müharibəsinin iştirakçısıyam, amma müharibədən bircə sətir də yaza bilmədim. Alınmırdı. Bir azərbaycanlı kimi özümü məğlubiyyətin səbəbkarı sayırdım. Müharibədən sağ qayıtmağıma utanırdım.Amma indi nə istəsən yazmaq olar, nasirin təxəyyülünün qarşısındakı maniələr aradan qalxıb.

IX sual:

IX cavab:Tərcümə həmişə problem olub. Sovet dövründə də Azərbaycan ədiblərinin rus dilində çıxan kitablarını barmaqla saymaq olardı. Amma bu sahədə uğurlarımız get-gedə artırdı. Tərcüməçilərin sayı, tərcümələrin keyfiyyəti artırdı.Sovet hökuməti dağıldıqdan sonra rus dilinə tərcümələr dəbdən düşdü,artıq yazıçılarımızı və şairlərimizi ingilis dilində çap olunmaq imkanları maraqlandırmağa başladı. Ədiblərin istəkləritərcüməçi qıtlığı ilə üzləşdi. Tərcüməçinin tələb elədiyi zəhməthaqqı ölkənin kasıb, dilənçi kökündə yaşayan ədiblərinin imkanları fövqündədir. Hətta, bu problemləri həll eləyəndən sonra da iş bitmirdi. Xaricdə kitabçapının maliyyə məsrəfləri böyükdü. ABŞ da, Nyu-York şəhərində iki kitab çap etdirdiyimdən sədləri necə çətinliklə aşdığımı təcrübəmdən bilirəm. İş heç bununla da bitmir. Xaricdə kitab reklam olunmasa, satılmır. Reklam xərcləri isə çox böyükdü...Bir sözlə, ingilis dilindən kənarda yaranan ədəbiyyatımızın problemləri bitib-tükənmir. Dünya ingilisdilli ədəbiyyatın hökmündədir. Böyük Nizami Gəncəvinin farsca yazması səbəbsiz deyildi ki!

X sual:

X cavab: Ay İdris qardaşım, nə qoyub, nə axtarırsan! Peşəkarlar, istedad sahibləri yazmaqla məşğuldurlar, özünüreklama vaxtları yoxdur. Bu həmişə belə olub, yəqin ki, belə də olacaq. Həmişə əldəqayırma şairlər, yazıçılar, və hər cür cızmaqaraçılar ortada meydan sulayıblar. Bunun bir neçə səbəbi var. Əhalimiz az oxuyur, demək olar ki, heç oxumur, insanlarımızın zövqlərikorlanıb. Oxucuların, dinləyicilərin böyük əksəriyyəti yazıçını şairdən, nəsri nəzmdən ayıra bilmir. Beş-altı qoşma-gəraylı yazana, meyxana deyənə şair deyir. Günümüzün reallığı budur! Neynəməli? Əlimizdən nə gəlir ki! Ümid edirəm ki, yaranan əsl ədəbi nümunələr Böyük Zamanın doğanağından keçəndən sonra əsl qimətini alacaq. Bir misal çəkim. Eyni dövrdə yaşamış şairlərdən Y. Baratınskiy A. Puşkindən daha çox tanınırdı, daha çox sevilirdi. Amma zaman öz hökmünü verdı. İndi Rusiyada Y. Baratınskini yada salan yoxdur, A.Puşkinin adı isə dillərdən düşmür.

XI sual:

XI cavab: Bəli, Sizinlə razıyam, indi Qələbə qoxulu romanlar, povestlər, hekayələr yazmaq vaxtıdı. Bilirsən ki, mən I Qarabağ müharibəsinin iştirakçısıyam. Məndən soruşanda ki, niyə müharibə barəsində yazı yazmırsan, deyirdim, uduzulmuş müharibə haqqında yazı yazmaq çətindir. İndi, şükür Allaha, bu məsələ natamam da olsa həll olunub. 44 günlük müharibədə Azərbaycan əsgəri öz sözünü dedi. İndi Azərbaycan ədəbiyyatı öz sözünü demələdi, Qələbə romanlarını, poemalarını, dram əsərlərini ortaya qoymalıdır.

XII sual:

XII cavab: Müasir Yazıçılar Birliyi necə olmalıdır mən bilmirəm, amma köhnə Yazıçılar Birliyi artıq yoxdur. Üç min üzvü olan bir təşkilat köhnə streotipləri sındırıb, amma yenisini yaratmayıb. Kiçik bir ölkənin üc min yazıçısı və şairi var. Hər 3333 nəfərə, böyüklü-kiçikli Azərbaycan vətəndaşına bir yazar düşür. Yazıçılar Birliyinin ən böyük uğuru da budur. Yəni 3333 nəfər bir yazarı dolandırmalıdır, yəni kitablarını almalıdır ki, həmin ədib yaşasın. Əslində, zarafatı kənara qoysaq, AYB yeni dövrlə ayaqlaşa bilmədi, ədəbiyyatçılarımıza heç nə təklif eləyə bilmədi. Onlara nə maddi, nə mənəvi dəstək ola bilmədi, amorf bir təşkilata çevrildi. Uzun müddətdi ki, dövlətin Azərbaycan ədəbiyyatının inkişafına ayırdığı vəsaiti heçə-puça xərcləməklə məşğuldu. Axırıncı 30 ildə bircə yeni mətbu orqanı yaradılmadı, olan-qalan mətbu orqanları da tənəzzüldədi, tirajları rayon qəzetlərinin tirajından da azdır. Vallah, danışmalı deyil, danışdıqca dərdlərimiz təzələnir...

XIII sual:

XIII cavab: İdris müəllim, səni inandırıram ki, "N" qədər roman yazmaq olar. Şükür Allaha, mövzu çoxdu, təki yazasan. Bir əmma var! Bir əllə əl çalmaq mümkün deyil. Bəli, bəli , hər zurnaçalanın bir balabanda zü tutanı olmalıdır. Yazıçı kefi nə istədi yaza bilməz ki! Meyarlar var, ölçü-mizan var. Yəni hər bir yazar kimlər üçünsə yazmalıdır, yəni sosial sifariş olmalıdır. Yaradıcı adamlar göydən düşmürlər, kütlənin içindən çıxırlar, yaşadığı cəmiyyətin meyvəsidirlər.. Sosial sifariş mayak kimidi, yazıçıya yol göstərir, gəmisini sualtı qayalardan, saydan keçirir, limana çatdırır. Fransız yazıçısı Flober deyirdi ki, mən cəmiyyət üçün yox, öz kefim üçün yazıram, çap olunmağım vacib deyil. O, öz məşhur qəsrindən bayra çıxmırdı, valideyinlərinin ona saxladığı var-dövlətdən xımır-xımır xərcləyir və ancaq ədəbiyyatla məşğul olurdu. Nəhayyət, "Madam Bovari" romanını yazıb qurtardı, dərhal cap elətdirdi. Yazıçının hiyləgərliyi üzə çıxdı. Məlum oldu ki, hətta, belə imkanlı, istedadlı yazıçı da mayaksız keçinə bilmir, sosial sifarişi yerinə yetirdiyinə əmin olmaq istəyir, romanı çap elətətdirir.

Bu gün Azərbaycan cəmiyyəti dediyimiz mayak vəzifəsini yerinə yetirə bilmir. Yazıçı məcburdi ki, qarasına getsin, hər addımını ölçüb-biçsin, yoxsa "gəmisini" saya oturda bilər, seçdiyi ən gözəl mövzular da onu xilas edə bilməz.

XIV sual:

XIV cavab: Bizim qürur yerimiz N. Gəncəvi haqqına nə deyilməlidirsə, deyilib, nə yazılmalıdırsa, yazılıb. Onun "Xəmsəsinə" qırxdan çox nəzirə yazılıb. Uzun müddət şairlərin işığına getdikləri kəhkaşandakı Dan ulduzu olub. Məlum bir həqiqəti bir də təkrarlayaq, əbəttə, N. Gəncəvi təkrarolunmaz bir şairdir. Bu qədər! Görürəm bu kifayət deyil...Məndən Nizami haqqında təzə nəsə eşitmək istəyirsən? Bir də belə bir dahi dünyaya gələcəkmi? Güman ki! Amma həmin dahi Nizami olmayacaq.

XV sual:

XV cavab: Başqası üçün roman da, povest də yazmaq olar, hətta, şeir-mahnı da qoşmaq olar. Nə olar ki? Burda nə var ki! Yazının kimin adından olmağından asılı olmayaraq bundan ədəbiyyat heç nə itirmir. Əslində yazarı qınamağına dəyməz. Çətin bir zəmanə gəlib, hərə başını bir cür dolandırır. Yazır, qoy yazsın. Əsas odur ki, yazdığı istedad işığı saçsın, cızmaqara olmasın. Mirzə Şəfi Vazehin şerləri müəllifliyi mənimsənilsə də mahiyyətini dəyişmədi. Onları öz adından dərc edən F.Bodenştedə isə şöhrət gətirsə də, istedad vermədi. Biz bədii tərəfindən danışırıq. Başqa tərəfdən yanaşdıqda, əlbəttə, əxlaqsızlıqdı. Mən bunu alqışlamıram. Bir dəsizi inandırıram ki, istedad sahibləri bu əmələ qol qoymazlar! Cızmaqaracıları isə müzakirə eləməyinə dəyməz...Əsl ədəbiyyatın onlara nə dəxli var!